UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.1.347

**TOFİYƏ CAVADOVA ***

# MÜASİRİMİZ BƏSTƏKAR RÜFƏT RAMAZANOVUN FORTEPİANO YARADICILIĞI

*Məqalədə müasir bəstəkarlıq məktəbinin nümayəndəsi Rüfət Ramazanovun fortepiano yaradıcılığına müraciət edilmişdir. Bəstəkarın fortepiano əsərləri təhlil edilərək, onlarda üslub xüsusiyyətləri, forma və məzmun araşdırılmışdır.”10 Prelüd” məcmuəsində daha çox period, sadə iki və üç hissəli formalar üstünlük təşkil edir. Prelüdlərdə əsas melodiya şəffaf və yadda qalan, asan ifa olunan şəkildə verilir. Bəstəkarın fortepiano yaradıcılığında sadə və lakonik mövzuların təqdimatı, müşayiətdə isə akkordlu və arpeciolu quruluşlar yer alır. Bəstəkar gənc ifaçıların musiqi təfəkkürünü və hazırlığını nəzərə alaraq hədsiz xromatizmlərə, mürəkkəb quruluşlara, texniki çətinlik yarada biləcək üsullara yer vermədən maraqlı əsərlər ərsəyə gətirmişdir. R.Ramazanovun fortepiano musiqisi sahəsində qələmə aldığı əsərləri maraqlı ifaçılıq nümunələri olmaqla yanaşı, müasir Azərbaycan fortepiano musiqisini zənginləşdirmiş sənət əsərləridir.*

***Açar sözlər:*** *Rüfət Ramazanov, bəstəkar, yaradıcılıq, fortepiano, prelüd, məcmuə.*

## Giriş

Azərbaycan professional bəstəkarlıq məktəbi dərin köklərə və ənənələrə malik olub qeyri-adi koloriti, rəngarəngliyi ilə təkrarolunmaz təkamül yolu keçmişdir. Musiqi mədəniyyətimizin möhtəşəmliyi Azərbaycan professional musiqisinin banisi dahi Üzeyir Hacıbəylidən başlayaraq görkəmli bəstəkarlarımızın: M.Maqomayev, Q.Qarayev, F.Əmirov, Niyazi, C.Hacıyev, Ə.Bədəlbəyli, A.Zeynallı, S.Hacıbəyov, T.Quliyev, V.Adıgözəlov, A.Məlikov, A.Əlizadə, X.Mirzəzadə və başqalarının təkrarolunmaz, füsünkar yaradıcılıqlarında öz təcəssümünü tapmışdır. Zəngin Azərbaycan musiqisi bu gün özünün yeni dövrünü yaşayır.

XXI əsrdə klassik musiqimizi ölkəmizdən uzaqlarda tanıdan və şöhrət qazandıran, F.Əlizadə, T.Bakıxanov, A.Dadaşov, E.Dadaşova, S.Fərəcov, L.Cəfərova, R.Ramazanov və başqalarının fəxirlə adlarını çəkə bilərik.

Çağdaş dövrümüzdə müasir bəstəkarlarımızın hər biri Ü.Hacıbəyli ənənələrini davam etdirərək musiqi mədəniyyətimizi yeni-yeni çalarlar, forma və məzmun, üslub xüsusiyyətləri, janr müxtəlifliyi ilə zənginləşdirərək ölkə hüdudlarında fəxirlə vətənimizi təmsil edirlər. Azərbaycan bəstəkarlarının hər bir nəslinin nümayəndəsi müxtəlif janrlarda olduğu kimi, fortepiano musiqisi sahəsində də, xüsusilə gənc ifaçılar üçün nəzərdə tutulmuş məcmuələrdə öz yaradıcılıq qüvvələrini sınamış və dəyərli musiqi əsərləri yaratmışlar. Rüfət Kamal oğlu Ramazanov müasir dövrümüzün kifayyət qədər tanınan bəstəkarlarından biridir. Görkəmli sənətkarımız, bir neçə nəsil gənc bəstəkarlar yetişdirmiş professor Xəyyam Mirzəzadə məktəbinin yetirməsi olan Rüfət Ramazanov bu məktəbin ən yaxşı cəhətlərini mənimsəmişdir.

R.Ramazanov bu günki günə kimi “Hürufilər” simfonik poeması, “Balet süitası”, “Fəzlullah Nəimi” simfonik poema, “Qara Qarayevə ithaf” simfoniya, “İmpression” simli orkestr üçün simfonik musiqi, “Azadlıq Eşqinə” ODA, ”Naxış” kamera orkestri üçün musiqi, teatr və kino musiqisi, fortepiano əsərlərini qələmə almışdır.

Rüfət Ramazanovun kiçik və iri həcmli janrlarda bəstələdiyi musiqi əsərləri milli incəsənətimizə dəyərli töhfədir. Yaşından və sosial statusundan aslı olmayaraq müxtəlif dinləyici auditoriyasının marağını qazanmış bəstəkar hər zaman insan mənəviyyatının ali hislərini tərənnüm etməyə üstünlük vermişdir. Onun əsərlərində yer alan obrazlar aləmi dərin fəlsəfi, vətən sevgisi, uşaqlara qayğı və diqqət hissləri aşılamaqla gənc nəslin mənəvi dəyərlər üzərində formalaşmasına təkan vermişdir. Xüsusilə azyaşlı musiqiçilər üçün nəzərdə tutulmuş əsərlərdə musiqi dilinin milli köklərə sıx bağlılığı, sadə və anlaşılan üsul və metodların tətbiqi, eləcə də rəngarəng obraz-emosional məzmunu ilə dinləyici auditoriyasının böyük rəğbətini qazanmışdır.

R.Ramazanovun yaradıcılığında maraq doğuran sahələrdən biri də fortepiano musiqisidir. Bu sahə bəstəkarın yaradıcılığında aparıcı olmasa da parlaq, diqqətəlayiq əsərlərlə təmsil olunmuşdur.

Bəstəkar bir neçə fortepiano silsiləsinin müəllifidir. Bunlardan " 10 prelüd" (əsər III-IV siniflər üçün dərslik kimi tədris proqramına əlavə edilmiş və nəşr olunmuşdur), "Fortepiano pyesləri" (uşaqlar üçün albom), "7 prelüd", "Ötəri anlar", "Nağıllar" (uşaqlar üçün fortepiano pyesləri), "Divani" əsərlərini qeyd etmək olar.

Tədris proqramına əlavə edilmiş, orta çətinlikdə "10 prelüd" fortepiano silsiləsində improvizasiya üslublu, sərbəst ardıcıllıqla inkişaf edən, bir-birinin variantı kimi səslənən on müxtəlif mövzu təcəssüm olunur. Bu tipli kiçik pyeslərdə janra xas olan konsepsiya, ziddiyyət yoxdur. Pyeslər özünəməxsus olaraq, forma-struktur kimi vacib, dramaturji baxımdan qarşıdurma və ya müqayisə olunma kimi keyfiyyətlərdən sanki məhrumdur. Məcmuəyə daxil edilmiş kiçik prelüdlərdə emosional obraz müxtəlifliyi, tonal cəhətdən materiallar arasında fərq hiss olunmasa da, özünü büruzə verir.

Silsilədə bəstəkar funksional sistemdən imtina edərək lad təfəkkürünə əsaslanan milli musiqi prinsiplərinə dayaqlanır. R.Ramazanov öz prelüdləri üçün lad-tonal, atonal, qruplaşmış və s. sistemləri sintezləşdirir. Hər prelüddə konkret obraz təsvir olunsa da, vahid enerji xətti, ümumi hərəkət onları birləşdirir. Bu, musiqinin texniki tərəfindən çox, psixoloji-emosional tərəfinin göstəricisidir. Silsiləyə daxil olan 10 prelüd mahiyyət etibarilə obrazların xarakteri, daxili aləminin müxtəlif məqamlarını əks etdirən "lövhə"lərdir. Prelüdlərin musiqi dili özünəməxsusluğu ilə fərqlənərək müasir instrumental musiqini zənginləşdirən cizgilərə malikdir

Silsilənin birinci prelüdü e –moll tonallığında, *Sostenuto, Leggero* tempində, 6/8 ölçüsündə sadə hamafon harmonik fakturada verilərək silsilənin ümumi ideya- məzmun özəyini daşıyır. Bu prelüddə giriş xarakterli başlanğıc mövzu axıcılığı, melodik cəhətdən müstəqil inkişafı ilə əsərin xarakterini və obraz məzmununu açıqlayır. Lakin musiqi materialına repriza bölməsində dinamik yüksəliş və intonasiyaların sıxlaşdırılması prelüdün xarakterini, musiqinin ümumi əhval-ruhiyyəsini əhəmiyyətli dərəcədə dəyişir. Variantlıq prinsipi melodik-ritmik olduğu kimi, tembr-faktura baxımından da özünü göstərir.

"10 prelüd" silsiləsi janr xüsusiyyətləri, pianizm nöqteyi-nəzərindən gənc ifaçılar üçün nəzərdə tutulduğunu sübüt edir. Hər bir pyesin əsası lad sisteminin mərkəzində duran səs ətrafında qurulur. Həmin səsi tonika kimi qəbul edən müəllif ilk baxışdan sərbəst, lakin daxilən tamamilə mütəşəkkil quruluş yaradır.



"10 prelüd" silsiləsi gənc ifaçılar üçün nəzərdə tutulduğundan ilk prelüddə artıq biz sadə fakturaya şahid oluruq. Prelüd sakit xarakterlidir və sadə harmoniyalardan istifadə etməklə, tədricən inkişaf üsulu ilə sakit rənglərdə işlənmişdir. Digər tərəfdən burada klassik yazı texnikası hökm sürür. Əsas mövzunun təqdimatı onun bas ifasını və nəhayət, paralel olaraq iki ölçü gecikməsi ilə alto səsini təmin edir və baslarla, inkişaf xarakterli bir epizoda gətirilir. Yeni intonasiya və ritmik elementlər meydana çıxırki, tembrdə melismaları xatırladan, klavesin səsinə yaxınlaşma hiss olunur ki, bu da ifaçıdan çox nəfis icra tələb edir. Maraqlıdır ki, basın yalnız tersiyalarla hərəkəti sanki ostinatoluq yaradır və bunun fonunda melodiyada ritmik qeyri sabit səslənən əsas mövzunun variantlı təkrarları verilir. İfaçılıq baxımından orta çətinlikdə olan (əlbət ki, gənc ifaçılar üçün) prelüdün əsas vurğusu bas ilə sopranonun ritmik qeyri-sabitliyinin dəqiq icrasının olmasıdır.

Silsilənin digər maraqlı nömrələrindən ikinci və üçüncü prelüdlərdə akkord harmonik quruluşun üstünlük təşkil etməsi və klasterlərdən geniş istifadəsi diqqəti cəlb edir. Prelüdlərdə mövzunun sekunda

və kvarta  kompleksləri ilə verilməsi xalq instrumental ifaçılığına xas olan aşıqvari harmoniyanın səslənməsini xatırladır.




Etüd xarakterli bu prelüdlərdə musiqili-tematik intonasiya təşkilində sazın kökü ilə səsləşən səciyyəvi xalis kvarta və kvinta intervallarının paralel şəkildə növbələşmələri maraq doğurur. Hər iki prelüddə dəqiq müəyyənləşmiş ritmik şəkil və əvvəldən sona qədər saxlanılmış fakturalı xüsusiyyət diqqəti cəlb edir. Kvarta- kvintalı səs birləşmələri ostinat ritmik formula əsaslanaraq, əsərin formasının (ABA)  kənar hissələrində özünü göstərir.

Məcmuədə üzərində dayanmaq istədiyimiz digər əsər doqquzuncu prelüddür. Ümumi abu-havanı davam etdirən bu prelüd C-dur tonallığında, Allegro con fuoco tempində və 6/4 ritmində verilmiş motorikalı fasiləsiz inkişafa dayaqlanır.  Prelüddə hər iki əlin sürətli paralel hərəkətinin bu cür texnikası musiqi materialında dinamik inkişaf təəssüratı yaradır.




Prelüddə bəstəkar diatonik səs və qeyri akkord səs birləşmələrindən istifadə edərək, yavaş-yavaş genişlənən registr diapazonundan, registr tutuşdurmalarından, sağ əldə keçən oktava gedişlərindən istifadə edir. Registr genişlənməsi formanın (ABA) orta hissəsində yeni epizod kimi verilir.



Bəstəkar prelüddə musiqi mətninin bədii elementlərini xüsusi olaraq vurğulasa da, musiqi ifadə vasitələrindən çox qənaətlə istifadə edir. Əsərdə musiqi cümləsi və onun forma-quruluş qanunauyğunluğu ilə əlaqələndirilməsi diqqəti cəlb edir. Ümumiyyətlə R.Ramazanovun “10 Prelüd” silsiləsində klassik forma-struktur qanunlarına əsaslanaraq, musiqi əsərində sual-cavab cümlələrinin növbələşməsi, (onun əsasında ibarələrin qarşılıqlı, əlaqəli qurulması) melodik fikrin yaranmasına səbəb olur. Bu kimi quruluşun sistemləşməsi, onun əlaqəli “düzülüş” prinsipi çərçivəsində improvizəvi

yozumun müəyyənliyini xarakterik şəkildə göstərir.

“10 prelüd” silsiləsi ifaçılıqda ilk addımlarını atan kiçik yaşlı musiqiçilər üçün dəyərli əsərdir. Silsilədə bəstəkar gənc ifaçıların psixologiyasına uyğun olaraq, musiqi dilinin sadəliyinə əsaslanaraq aydın musiqi obrazları yaratmağa çalışmışdır. Təzadlı tutuşdurmalar, parlaq və aydın tematizm, lakonik melodik və ritmik strukturlar, kompakt faktura quruluşları musiqi informasiyasının anlaşıqlı olması ilə əlaqədar bəstəkar tərəfindən düşünülərək tədbiq edilişdir. Hər bir prelüddə müxtəlif janrların- marş, xalq mahnısı, aşıq ifaçılığına xas olan səciyyəvi ritmik xüsusiyyətlər özünü büruzə verir. Burada daha çox period, sadə iki və üç hissəli formalar üstünlük təşkil edir. Prelüdlərdə əsas melodiya şəffaf və yadda qalan, asan ifa olunan şəkildə verilir. Müşayiətdə isə akkordlu və arpeciolu quruluşlar yer alır. Bəstəkar gənc ifaçıların musiqi təfəkkürünü və hazırlığını nəzərə alaraq hədsiz xromatizmlərə, mürəkkəb quruluşlara, texniki çətinlik yarada biləcək üsullara yer verməmişdir. Lakin ümumi musiqi materialının inkişafında motiv və ya cümlələrin dəfələrlə təkrarlanması prelüdlərdə müxtəlif harmonik tərkiblərlə, trel və melizmlərlə, eləcə də müxtəlif fiqurasiyalarla, partiyaların yerdəyişməsi ilə rəngarəng şəkildə təqdim edilmişdir. Beləliklə, R.Ramazanovun “10 Prelüd” dən ibarət məcmuəsi öz səciyyəvi cəhətləri, bədii və texniki ifaçılıq məsələləri ilə milli fortepiano musiqisinə dəyərli töhfədir. Bu tip məcmuələr uşaq musiqi məktəblərinin həm aşağı, həm də nisbətən yuxarı siniflərində pedaqoji repertuarda faydalı şəkildə dəyərləndirilə bilər.

R.Ramazanovun fortepiano əsərləri sırasında daha bir maraqlı nümunə “Divani” əsəridir. “2011-ci ildə qələmə aldığı “Divani” fortepiano pyesi, bəstəkarın məhz fortepiano musiqisi sahəsində yeni axtarışlarının təcəssümü kimi qələmə alınır. Əsər geniş nəfəsli melodik dilə malik “qəhrəmani “ xarakterli melodiyaya malikdir. “Divani” fortepiano pyesində aşıq musiqisinə (saz) xas olan faktura nümunəsi təqlid olunmuşdur. Müəllif əsərdə sazın ifasının səslənmə tərzini və ifa manerası baxımından təqlidini yaratmişdır. Bu xüsusiyyət olduqca mürəkkəb olmaqla yanaşı, ifaçılıq baxımından da, ifaçılar qarşısında müəyyən məsuliyyət yaradır.” [№,3 s.89]

Qeyd edək ki, “Divani” fortepiano pyesini müəllif Ü.Hacıbəyliyə ithaf etmişdir. “Divani” fortepiano pyesinin ilk ifaçısı Azərbaycan Respublikasının Xalq artisti, professor Ülviyyə Hacıbəyova olmuşdur.

“Divani” proqramlı əsər olduğundan özündə bəstəkarın ideya-məzmununu əks etdirən musiqi materialına malikdir. ““Divani” — coşğun, təntənəli, döyüşkən ruhlu aşıq şeiridir. Divani aşıq məclisinin girişində xüsusi saz havası ilə oxunan fəlsəfi-didaktik və dini-ürfani ruhlu klassik şeir şəklidir. Daha çox əruz vəzninin rəməl bəhrində olub, aşıq poeziyasına divan ədəbiyyatından adlamışdır. Üç-beş bənddən ibarət olan divaninin hər bəndi dörd misradır” [№1].



Əsərdə aşıq havalarının üslubu, melodik intonasiya, metro-ritmik, quruluş xüsusiyyətləri musiqi materialının şərhində təqdim edilmişdir. R.Ramazanov fortepiano miniatür janrına aşıq sənəti kimi epik janrı sadələşdirərək tətbiq etmişdir. Onu da qeyd etməliyik ki, “aşıqsayağı” üslubda yazılmış və yaxud da, proqramlı əsərlər dahi Ü.Hacıbəyli yaradıcılığından irəli gələrək bir çox bəstəkarlarımızın

qələmində sınanmışdır. Pyesin musiqi materialında bir neçə inkişaf dalğası özünü göstərir ki, bu zaman musiqi materialının müxtəlif üsullarla işlənilməsi və şəkildəyişmələri verilir. İnkişaf dalğalarında melodik variantlıqla yanaşı, ritmin dəyişməsini də qeyd etməliyik. Musiqi materialının inkişafının ən yüksək zirvəsində oktavalı ifadə tərzi tersiya-sekunda quruluşlu akkordlarla uzlaşdırılmada verilir. Bu cür ifadə tərzi də aşıq havalarında özünü göstərən səciyyəvi haldır. Mövzu polifonik üsullarla inkişaf etdirilir, imitasiyalı səslənmələrdə mövzunun melodik ibarələri həm bir səsli, həm də sekunda-tersiya quruluşlu səs birləşmələrilə ifadə olunur.

**Nəticə**

Nəticədə onu qeyd edə bilərik ki, bəstəkarın fortepiano yaradıcılığında nəzər yetirdiyimiz əsərlər özündə müxtəlif xarakterli və janrlı pyesləri birləşdirərək yeni üslub prinsiplərini əks etdirir. Müasir fortepiano musiqisi akademik musiqi dünyasında olan qlobal proseslərin özünəməxsus təfsiridir, əksidir və onun ən yaxşı tapıntıları ifaçıların qavrayışına əsasən uyğunlaşdırılır. Müxtəlif mərhələdə təhsil alan gənc ifaçılar üçün nəzərdə tutulmuş məcmuələr, ayrı-ayrı miniatürlər, sonata və variasiyalar həm ifadə vasitələrinin fərqliliyinə görə və eləcə də bəstəkarın fərdi yaradıcılıq üslubu baxımından maraq doğurur. "Hər bir bəstəkarın öz fərdi üslubu mövcuddur. Bu xüsusiyyət, onun yaradıcılığı ücün çox qiymətlidir. Bəzən bir istiqamətdə çalışan bəstəkarların fərdi üslublarından asılı olmayaraq, müəyyən ifadə vasitələri yaranır ki, bu da, musiqi dilinin ümumi inkişafının əlaqəsi ilə əmələ gəlir."[№8.s.5 ]

Rüfət Ramazanov fortepiano əsərlərini kiçik həcmli pyeslər şəklində təqdim edir. Bəstəkarın fortepiano musiqisi sahəsində qələmə aldığı əsərləri maraqlı ifaçılıq nümunələri olmaqla yanaşı, müasir Azərbaycan fortepiano musiqisini zənginləşdirmiş sənət əsərləridir.

## ƏDƏBİYYAT


1. Bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və onun sahələri .Wayback Machine.
2. Həsənova C. Azərbaycan bəstəkarlarının əsərlərində milli ladların təzahürü (dərs vəsaiti).B.,2004,136s.
3. Müasirlərimiz: bəstəkar Rüfət Ramazanov" / Monoqrafiya Bakı, 2021, SkyE, 176 s.
4. Аббасова Э.А. История азербайджанской музыки, I часть, Б.: Маариф, 1992, 232 с.
5. Дебюсси К. Статьи, рецензии, беседы, пер. с франц. М. Л., 1964, с. 33
6. Корто А. Фортепианная музыка Клода Дебюсси. // О фортепианном искусстве: Статьи, материалы, документы. М.: 1965, с. 138-139.
7. Касимова С.Д; Багиров Н.Г. Азербайджанская советская музыкальная литература. Б.: Маариф, 1986, 264 с.
8. Сеидов Т.А. Азербайджанская советская фортепианная музыка (1930-1970). Б.: Язычы, 1980, 149 с.
9. Сеидов Т.А. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Б.: Азернешр, 2006, 270 с.
10. Оголевец А. С. Специфика выразительных средств музыки. М.: Советский композитор, 1969.


***Ü.Hacıbəyli adına BMA-nın***
***"Fortepiano,orqan,klavesin" kafedrasının dosenti***

**Tofia Javadova**

## PIANO WORKS BY CONTEMPORARY COMPOSER RUFAT RAMAZANOV

The article examines the piano works of Rufat Ramazanov, a representative of the modern school of composition. The composer's piano works are analyzed and stylistic features, form and content are examined in the collection "10 Preludes", where the period, simple two- and three-part forms prevail. In the preludes, the main melody is presented transparently and memorably, easily

playable. The composer's piano work includes the presentation of simple and laconic themes, the accompaniment includes chord and arpeggio structures. Taking into account the musical thinking and training of young performers, the composer created interesting works without excessive chromaticism, complex structures and techniques that could cause technical difficulties. Rufat Ramazanov's musical works in small and large genres are a valuable contribution to our national art.

**Keywords**: *Rufat Ramazanov, composer, creativity, piano, prelude, collection.*

**Тофия Джавадова**

**ФОРТЕПИАННЫЕ ПРОИЗВЕДЕНИЯ СОВРЕМЕННОГО КОМПОЗИТОРА РУФАТА РАМАЗАНОВА**

В статье рассматривается фортепианное творчество Руфата Рамазанова, представителя современной композиторской школы. Проанализированы фортепианные произведения композитора и исследованы стилистические особенности, форма и содержание в сборнике «10 прелюдий», где преобладают период, простые двух- и трехчастные формы. В прелюдиях основная мелодия представлена прозрачно и запоминающе, в доступной форме исполнения. Фортепианная работа композитора включает в себя изложение простых и лаконичных тем, в аккомпанемент включены арпеджио и аккордовые структуры. Учитывая музыкальное мышление и подготовку молодых исполнителей, композитор создавал интересные произведения без излишнего хроматизма, сложных структур и приемов, которые могли бы вызвать технические трудности. Музыкальные произведения Руфата Рамазанова в малых и больших жанрах являются ценным вкладом в наше отечественное искусство.

**Ключевые слова:** *Руфат Рамазанов, композитор, творчество, фортепиано, прелюдия, сборник.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 13.01.2025**
**Son daxilolma tarixi:17.02.2025**